# «AUDİTOR XİDMƏTİNİN AKTUAL PROBLEMLƏRİ» MÖVZUSUNDA KEÇİRİLMİŞ SORĞUNUN NƏTİCƏLƏRİ BARƏDƏ İCMAL

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2013-cü il 17 oktyabr tarixli 1/15 saylı sərəncamına uyğun olaraq, Auditorlar Palatasının əməkdaşları və Azərbaycan Universitetinin tələbələrindən ibarət yaradılmış 8 yarımqrupdan ibarət olan 34 nəfər işçi qrupu tərəfindən 2013-ci ilin 21 oktyabr-18 noyabr tarixlərində «Auditor xidmətinin aktual problemləri» mövzusunda sosioloji sorğu keçirilmişdir.

İşçi qrupu tərəfindən sorğunun təşkilinin və keçirilməsinin nəzəri və praktik əsaslığını təmin etmək məqsədilə plan-proqram hazırlanmış və ona uyğun həyata keçirilmişdir.

Keçirilmiş sorğuda 8 yarımqrupdan ibarət olan 33 nəfərlik işçi qrupu iştirak etmişdir. Sorğuda praktik baxımdan nəzərdə tutulmuş 265 respondentdən 245-i, yəni 92,5%-i tam iştirak etmiş, 20-i isə, yəni 7,5%-i müəyyən səbəblərə görə (təşkilatın ləğvi, ünvanların müəyyənləşməməsi, sorğuda iştirak etməkdən imtina və başqa bu kimi səbəblər) sorğuda iştirak etməmişlər.

Müqayisə üçün bildirmək istərdik ki, 2003-cü ildə bu göstərici 240 respondentdən 175, yəni 73%, 2004-cü ildə 289 respondentdən 245, yəni 84,8%, 2005-ci ildə 290 respondentdən 245, yəni 84,5%, 2006 və 2007-ci illərdə 300 respondentdən 245, yəni 81,7%, 2008-ci ildə 290 respondentdən 245, yəni 84,5%, 2009-cu ildə 260 respondentdən 245, yəni 94,2%, 2011-ci ildə 270 respondentdən 245, yəni 90,7%, 2013-cü ildə isə bu göstərici 265 respondentdən 245, yəni 92,5% təşkil etmişdir.

Keçirilmiş sorğunun respondent kimi götürülmüş subyektlərin məsul əməkdaşları (müdriyyət, baş mühasib, iqtisadçı və bunları əvəz edən bir sıra məsul şəxslər) cavablandırmışlar.

Məlumat üçün bildiririk ki, 2003-cü ildə keçirilmiş sorğuda respondentlər üçün 26 sual, 2004 və 2005-ci illlərdə 33 sual, 2006-cı ildə 34 sual, 2007 və 2008-ci illərdə 35 sual, 2009-cu ildə 37 sual, 2011-ci ildə 41 sual, 2013-cü ildə isə 46 sual hazırlanaraq sorğu vərəqlərinə daxil edilmişdir (2010 və 2012-ci illərdə müxtəlif səbəblərə görə sorğu aparılmamışdır).

**Tədqiqat mövzusunun aktuallığı**. Azərbaycanda inkişaf etməkdə olan audit, zəruri infrastruktur sahəsi kimi ictimai-iqtisadi baxımdan xüsusi əhəmiyyət kəsb etməkdədir. Azərbaycan Respublikası Prezidentinin iqtisadiyyatın inkişafında auditin rolunun artırılması üzrə imzaladığı fərman və sərəncamlarından irəli gələn vəzifələri yerinə yetirmək üçün auditor xidmətinin dövlət tənzimlənməsi və onun normativ hüquqi bazasını təkmilləşdirmək, ölkədə auditor xidməti bazarının mövcud vəziyyətini öyrənmək, bu sahədə gedən prosesləri təhlil etmək, xidmətin inkişaf problemlərini müəyyənləşdirmək və auditor xidmətinin inkişafı üzrə kompleks tədbirlər hazırlamasına, ölkədə aparılan iqtisadi islahatlar, sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər auditor xidmətinin təşkilinin müasir tələblər baxımından təmin olunmasına, onun inkişaf istiqamətlərinin elmi-praktik cəhətdən əsaslandırılmasına təkan verməkdədir. Bu baxımdan, auditin müstəqil bir sahə kimi

tədqiqi, onun problemlərinin öyrənilməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Ölkə prezidentinin imzaladığı 2004-cü il 3 sentyabr tarixli «Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)» və həmin proqramın davamı olaraq, 2007-ci il 28 iyul tarixli «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya», 2011-ci il 13 aprel tarixli məcburi auditdən yayınma hallarının qarşısının alınması məqsədilə «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikasının «İnzibati Xətalar Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi barədə», 2012-ci il 5 sentyabr tarixli «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın və «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında sərəncamları, 2005-ci il 16 noyabr tarixli «Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında» və 2007-ci il 22 may tarixli «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərmanları onun aktuallığını daha da artırır. Xüsusilə, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və inkişaf perspektivlərinin müəyyənləşdirilməsi üçün bu xidmət sahəsinin özünün inkişaf problemlərinin öyrənilməsi, bu istiqamətdə təhlillər aparılmasını zəruri edir.

**Tədqiqatın məqsədi**. Tədqiqat işinin məqsədi Azəbaycanda auditor xidmətinin təşkili və müasir inkişaf səviyyəsini təhlil edərək qiymətləndirmək, xidmətin aktual inkişaf problemləri üzrə araşdırmalar aparmaq və bu istiqamətdə təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədinə müvafiq olaraq, aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- auditor xidmətinin təşkili və tənzimlənməsi ilə bağlı mövcud qanunvericilik və normativ hüquqi bazanı təhlil etmək;
- iqtisadiyyat sahələrində və təsərrüfat subyektlərində auditin əhatə dairəsini və inkişaf səviyyəsini öyrənmək;
- korrupsiyaya qarşı mübarizədə auditor fəaliyyətinin tutduğu mövqeyi müəyyənləşdirmək və ona təsir edən amilləri qiymətləndirmək;
- korrupsiyaya qarşı mübarizədə daxili auditin təşkil edilməsinin zəruriliyini müəyyənləşdirmək;
- auditin regional inkişaf problemlərini araşdırmaq;
- auditor xidmətinin dəyəri, onun dəyişkənliyi üzrə tədqiqat aparmaq;
- xidmət bazarında rəqabət mühitinin formalaşmasının və haqsız rəqabət hallarının yaranmasının səbəblərini öyrənmək;
- auditor xidmətinin keyfiyyətini, ona təsir edən amilləri tədqiq etmək;
- xidmət bazarında sərbəst auditorların və auditor təşkilatlarının tutduğu mövqeyi müəyyənləşdirmək və ona təsir edən amilləri qiymətləndirmək;
- auditor xidmətinin inkişafına təsir edən mənfi meyllərin "qara audit"in yaranmasının səbəblərini tədqiq etmək;
- auditorların peşə-ixtisas səviyyəsinin müasir vəziyyətini və inkişaf problemlərini müəyyənləşdirmək;
- auditor xidmətinin tənzimlənməsi problemlərini təhlil edib, qiymətləndirmək;

- Auditorlar Palatası üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyətini araşdırmaq və qiymətləndirmək;
- Auditor xidmətində informasiya texnologiyalarının tətbiqi və elektron audit (e-audit) sistemini tətbiq etmək;
- Auditor xidmətində maraqlar toqquşmasının qarşısının alınması üzrə tədbirlər həyata keçirmək;
- ölkədə auditor xidmətinin müasir vəziyyətini qiymətləndirmək və onun inkişafı üzrə təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasları kimi iqtisad və audit üzrə elmi-praktik sahədə geniş yayılmış üsul və yanaşmalardan, beynəlxalq təcrübənin nəticələrindən, xarici və yerli alim, mütəxəssislərin nəzəri və təcrübi araşdırmalarından, həmçinin bu istiqamətdə qanunvericilik və normativ hüquqi bazadan, auditor xidməti bazarının təhlili və onun inkişaf problemlərinin öyrənilməsi üzrə tədqiqatların metodikasından istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və informasiya bazası.** Tədqiqat obyekti kimi Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan sərbəst auditorların və auditor təşkilatlarının fəaliyyəti nəzərdə tutulmuşdur. Tədqiqat işinin informasiya bazası kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, auditor xidmətinə dair müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyektlərinin məsul əməkdaşlarının fikirləri, interaktiv sorğunun nəticələri, Auditorlar Palatasının hesabatları, Palatanın üzvü olan sərbəst auditorların və auditor təşkilatlarının informasiyaları təşkil etmişdir.

**Gözlənilən nəticələr.** Tədqiqatın nəticələri Azərbaycanda auditor xidmətinin təşkili və inkişafı problemlərini, onun regional səviyyəsini tədqiq etməyə, bu sahədə mövcud qanunvericilik və normativ hüquqi bazanı qiymətləndirməyə, xidmət bazarının müasir inkişaf səviyyəsini təhlil etməyə və xidmətin inkişafına təsir edən amilləri müəyyənləşdirməyə, auditor xidmətinin inkişafı üzrə təkliflərin hazırlanmasına zəmin yaratmışdır.

**İşin tətbiqi istiqamətləri.** Aparılan tədqiqat işi Azərbaycan cəmiyyəti və iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən auditor xidmətinin inkişaf problemlərinin elmi-praktik baxımdan təhlilinə və bu xidmət sahəsinin inkişafı üzrə təkliflərin hazırlanmasına əsas vermişdir.

**Sorğunun nəticələrinə görə respondentlərin cavabları aşağıdakı kimi olmuşdur:**

**1.** Sorğu aşağıdakı təşkilati-hüquqi formalı təsərrüfat subyektlərində aparılmışdır:

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət müəssisəsi | 22(12,5%) | 10(4,1%) | 2(0,8%) | 3(1,2%) | 8(3,3%) | 3(1,2%) | 8(3,3%) | 9(3,7%) | 8(3,3%) |
| Açıq tipli səhmdar cəmiyyəti | 25(14,3%) | 48(19,6%) | 71(29,0%) | 56(22,9%) | 75(30,6%) | 70(28,6%) | 99(40,4%) | 40(16,3%) | 84(34,3%) |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qapalı tipli səhmdar cəmiyyəti | 11(6,3%) | 15(6,1%) | 13(5,3%) | 16(6,5%) | 20(8,2%) | 16(6,5%) | 6(2,4%) | 8(3,3%) | 10(4,1%) |
| Məhdud məsuliyyətli müəssisə | 42(24,0%) | 80(32,7%) | 85(34,7%) | 76(31,0%) | 77(31,4%) | 93(38,0%) | 58(23,7%) | 91(37,1%) | 96(39,2%) |
| Bank və digər kredit təşkilatları | | | | | | | | 43(17,5%) | - |
| Sığorta təşkilatı və cəmiyyəti | | | | | | | | 21(8,6%) | - |
| Bələdiyyə və bələdiyyə müəssisəsi | | | | | | | | 10(4,1%) | 8(3,3%) |
| Qeyri-hökumət təşkilatı | | | | | | | | 2(0,8%) | - |
| Birgə müəssisə | 14(8,0%) | 18(7,3%) | 30(12,2%) | 48(19,6%) | 47(19,2%) | 27(11,0%) | 35(14,3%) | 7(2,9%) | 4(1,6%) |
| Qeyri kommersiya təşkilatı | 8(4,6%) | 16(6,5%) | 7(2,9%) | 8(3,3%) | 3(1,2%) | 1(0,5%) | 3(1,2%) | 8(3,3%) | 7(2,8%) |
| Digər müəssisə və təşkilatlar | 53(30,3%) | 58(23,7%) | 37(15,1%) | 38(15,5%) | 15(6,1%) | 35(14,2%) | 36(14,7%) | 6(2,4%) | 28(11,4%) |
| **Cəmi:** | **175** | **245** | **245** | **245** | **245** | **245** | **245** | **245** | **245** |

Yuxarıda göstərilən 2003-cü ilə 53, 2004-cü ilə 58, 2005-ci ilə 37, 2006-cı ilə 38, 2007-ci ilə 15, 2008-ci ilə 35, 2009-cu ilə 15, 2011-ci ilə 6, 2013-cü ilə isə 28 digər müəssisə və təşkilatlarda xarici investisiyalı müəssisələr, onların filial və ya nümayəndəlikləri, törəmə müəssisələri, kiçik müəssisələr, özəl təhsil müəssisələri, şirkətlər, ictimai təşkilatlar nəzərdə tutulmuşdur.

**2.** Sorğuda iştirak etmiş təsərrüfat subyektlərinin fəaliyyətləri iqtisadiyyatın aşağıdakı sahələri üzrə olmuşdur:

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye | 41(23,4%) | 59(24,0%) | 42(17,2%) | 39(15,9%) | 37(15,1%) | 35(14,2%) | 32(13,1%) | 45(18,4%) | 27(11,0%) |
| Kənd təsərrüfatı | 3(1,7%) | 9(4,0%) | 3(1,2%) | 6(2,5%) | 1(0,4%) | 4(1,6%) | 8(3,3%) | 8(3,3%) | 5(2,1%) |
| Kommer-siya | 43(24,6%) | 69(28,0%) | 65(26,5%) | 62(25,3%) | 87(35,5%) | 73(29,9%) | 82(33,5%) | 71(28,9%) | 67(27,3%) |
| Bank | 9(5,1%) | 30(12,0%) | 20(8,2%) | 29(11,8%) | 39(15,9%) | 41(16,9% | 33(13,4%) | 43(17,5%) | 39(15,9%) |
| Sığorta | 5(2,9%) | 5(2,0%) | 30(12,2%) | 23(9,4%) | 23(9,4%) | 32(13,0%) | 27(11,0%) | 21(8,6%) | 28(11,4%) |
| Fond | | | | | | | | | 20(8,2%) |
| Bələdiyyə | | | | | | | | 10(4,1%) | 8(3,3%) |
| Digər İstiqamət | 74(42,3%) | 73(30,0%) | 85(34,7%) | 86(35,1%) | 58(23,7%) | 60(24,4%) | 63(25,7%) | 47(19,2%) | 51(20,8%) |
| **Cəmi:** | **175** | **245** | **245** | **245** | **245** | **245** | **245** | **245** | **245** |

Digər istiqamətli fəaliyyət novlü təsərrüfat subyektlərinə tikinti, inşaat, nəqliyyat, maşınqayırma, turizm, investisiya fəaliyyəti, təhsil, rabitə, telekommunikasiya, lombard, ticarət, istehsalat, əczaçılıq, kredit təşkilatları, redaksiya, nəşriyyat, poliqrafiya, müxtəlif növ xidmətlər, sərnişin və yükdaşıma, lizinq, konsaltinq xidməti, reklam və dizayn işləri, internet xidməti və.s aid edilmişdir.

**3.** Təsərrüfat subyektinin fəaliyyət göstərmə müddəti ilə bağlı sualı respondentlərin 100,0%-i cavablandırmışdır ki, bunlardan da 4,5%-i 1 il, 2,4%-i 2 il, 2,9%-i 3 il, 3,7%-i 4 il, 3,7%-i 5 il, 4,1%-i 6 il, 4,5%-i 7 il, 4,1%-i 8 il, 5,3%-i 9 il, 64,8%-i isə 10 il və daha çox fəaliyyət gostərən müəssisələrdir.

**4.** Keçirilmiş sorğunun nəticələri göstərir ki, respondentlərin 2003-cü ildə 70,9%-i məcburi, 29,1%-i könüllü, 2004-cü ildə 51,0%-i məcburi, 49,0%-i könüllü, 2005-ci ildə 38,8%-i məcburi, 61,2%-i könüllü, 2006-cı ildə 42,4%-i məcburi, 57,6%-i könüllü, 2007-ci ildə 43,3%-i məcburi, 56,7%-i könüllü, 2008-ci ildə 24,9%-i məcburi, 75,1%-i könüllü, 2009-cu ildə 47,8%-i məcburi, 52,2%-i könüllü, 2011-ci ildə 62,4%-i məcburi, 37,6%-i könüllü, 2013-cü ildə isə 60,0%-i məcburi, 40,0%-i könüllü auditin obyekti kimi çıxış etmişdir.

**5.** Respondentlərin 2003-cü ildə 136(77,7%-i), 2004-cü ildə 204(83,3%-i), 2005-ci ildə 209(85,3%-i), 2006-cı ildə 215(87,8%-i), 2007-ci ildə 189(77,1%-i), 2008-ci ildə 214(87,3%-i), 2009-cu ildə 201(82,0%-i), 2011-ci ildə 231(94,3%-i), 2013-cü ildə isə 234(95,5%-i) öz fəaliyyəti müddətində auditor xidmətindən istifadə etmiş, 2003-cü ildə 39(22,3%-i), 2004-cü ildə 41(16,7%-i), 2005-ci ildə 36(14,7%-i), 2006-cı ildə 30(12,2%-i), 2007-ci ildə 56(22,9%-i), 2008-ci ildə 31(12,7%-i), 2009-cu ildə 44(18,0%-i), 2011-ci ildə 14(5,7%-i), 2013-cü ildə isə 11(4,5%-i) hər hansı bir növ auditor xidmətindən istifadə etməmişlər.

Maraqlı haldır ki, sorğu aparılmış respondentlərdən məcburi auditin obyekti olan ATSC-nin 1,0%-i, MMC-nin 2,0%-i, digər bu yönümlü müəssisə və təşkilatların 1,5%-i hal-hazıradək auditor xidmətinin heç bir növündən istifadə etməmişdir.

**6.** Auditor xidmətindən istifadə etməmələrinin səbəbini, respondentlərdən (baza: 2003-cü il 175(100%), 2004, 2005, 2006, 2007, 2008, 2009, 2011 və 2013-cü illər 245(100%)), 2003-cü ildə 39(22,3%-i), 2004-cü ildə 41(16,7%-i), 2005-ci ildə 36(14,7%-i), 2006-cı ildə 30(12,2%-i), 2007-ci ildə 56(22,9%-i), 2008-ci ildə 31(12,7%-i), 2009-cu ildə 44(18,0%-i), 2011-ci ildə 14(5,7%-i), 2013-cü ildə isə 11(4,5%-i) aşağıdakı kimi cavablandırmışdır:

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Auditor xidməti haqqında məlumatın olmaması | 2(1,1%) | 6(2,4%) | 5(2,0%) | 5(2,0%) | 7(2,9%) | 8(3,2%) | 14(5,7%) | 3(1,2%) | 5(2,0%) |
| Auditorların peşəkarlıq səviyyəsinə inamsızlıq | 3(1,7%) | 7(2,9%) | 5(2,0%) | 0,0% | 4(1,6%) | 3(1,3%) | 3(1,2%) | 1(0,4%) | 0(0,0%) |
| Maliyyə vəziyyətinin imkan verməməsi | 19(10,9%) | 17(6,9%) | 5(2,0%) | 19(7,8%) | 40(16,3%) | 18(7,4%) | 15(6,1%) | 9(3,7%) | 6(2,4%) |
| Digər səbəblər | 15(8,6%) | 11(4,5%) | 21(8,7%) | 6(2,4%) | 5(2,1%) | 2(0,8%) | 12(5,0%) | 1(0,4%) | 0(0,0%) |

**7.** Təsərrüfat subyektinizin fəaliyyəti ilə bağlı profilaktik (könüllü) audit keçirməyin məqsədəuyğun hesab edilməsi barədə sualın cavabını respondentlərin 2003-cü ildə 97,0%-i cavablandırmış, belə ki onların 71,8%-i bəli, 28,2%-i xeyr, 2004-ci ildə 100,0%-i cavablandırmış, onların 75,1 %-i bəli, 24,9%-i xeyr, 2005-ci ildə 100%-i cavablandırmış, onların 86,9%-i bəli, 13,1%-i xeyr, 2006-cı ildə 100,0%-i

cavablandırmış, onların 78,0%-i bəli, 22,0%-i xeyr, 2007-ci ildə 100,0%-i cavablandırmış, onların 84,5%-i bəli, 15,5%-i xeyr, 2008-ci ildə 100,0%-i cavablandırmış, onların 87,8%-i bəli, 12,2%-i xeyr, 2009-cu ildə 100,0%-i cavablandırmış, onların 77,6%-i bəli, 22,4%-i xeyr cavablandırmış, 2011-ci ildə 100,0%-i cavablandırmış, onların 79,2%-i bəli, 20,8%-i xeyr cavablandırmış, 2013-cü ildə isə 100,0%-i cavablandırmış, onların 84,9%-i bəli, 15,1%-i xeyr cavabi verməklə münasibət bildirmişlər.

**8.** Auditor xidməti barədə məlumatın hansı səviyyədə olması sualına respondentlərin 2003-cü ildə 97,7%-i, 2004-cü, 2005-ci, 2006-cı, 2007-ci, 2008-ci, 2009-cu, 2011-ci və 2013-cü illərdə isə 100,0%-i aşağıdakı kimi cavablandırmışdır:

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Geniş məlumatım var | 58,5% | 64,9% | 66,5% | 70,2% | 60,8% | 70,3% | 57,1% | 67,7% | 63,7% |
| Məlumatım azdır | 38,0% | 29,4% | 32,3% | 28,6% | 36,3% | 28,1% | 35,1% | 30,6% | 32,7% |
| Məlumatım yoxdur | 3,5% | 5,7% | 1,2% | 1,2% | 2,9% | 1,6% | 7,8% | 1,7% | 3,6% |

**9.** Ölkədə auditor xidməti ilə bağlı məlumatların əldə olunma mənbəyi haqda sualı respondentlərin 2003-cü, 2004-cü, 2005-ci, 2006-cı, 2007-ci, 2008-ci, 2009-cu, 2011-ci və 2013-cü illərdə 100,0%-i cavablandırmışdır.

Sorğunun nəticələri göstərir ki, auditor xidməti haqqında məlumatları respondentlər bir deyil, aşağıda göstərilən müxtəlif mənbələrdən əldə etmişlər.

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| İnternetdən | 0,0% | 10,6% | 31,0% | 7,3% | 35,9% | 40,4% | 42,9% | 64,1% | 62,0% |
| Televiziya və radiodan | 10,9% | 18,0% | 31,4% | 25,7% | 26,9% | 40,8% | 33,1% | 26,5% | 13,9% |
| Qəzet və jurnallardan | 28,5% | 38,4% | 46,5% | 37,6% | 31,0% | 36,3% | 33,9% | 33,5% | 19,6% |
| Həmkarlarımdan | 13,4% | 16,7% | 25,7% | 26,1% | 21,2% | 25,7% | 33,5% | 15,1% | 18,4% |
| Auditor xidmətində çalışan şəxslərdən | 41,7% | 38,0% | 55,5% | 63,3% | 52,2% | 51,8% | 55,5% | 34,3% | 41,2% |
| Heç bir yerdən | 3,3% | 2,0% | 2,4% | 1,6% | 2,9% | 2,0% | 7,3% | 1,6% | 4,5% |
| Digər mənbələrdən | 2,2% | 1,2% | 2,4% | 2,0% | 1,6% | 1,6% | 1,2% | 1,6% | 2,0% |

Auditor xidməti haqqında əldə olunan məlumatların digər mənbəyi kimi respondentlər, normativ sənədləri, kitabxanaları, qanunvericilik bazasını, audit şirkətlərini, Auditorlar Palatasını bildirmişlər.

**10.** Sərbəst auditor və ya auditor təşkilatı seçimini edərkən hansı meyarların əsas götürülməsinə respondentlərin 2003-cü ildə 77,7%-i, 2004-ci ildə 83,3%-i, 2005-ci ildə 85,3%-i, 2006-cı ildə 87,8%-i, 2007-ci ildə 77,1%-i, 2008-ci ildə 87,3%-i, 2009-cu ildə 82,0%-i, 2011-ci ildə 94,3%-i, 2013-cü ildə isə 95,5%-i münasibət bildirmişdir.

Respondentlərin bir çoxu seçim meyarı edərkən bir neçə variantdan istifadə etməyi zəruri saymışdır.

Sorğunun nəticələri göstərir ki, respondentlərin bu suala cavabı aşağıdakı kimi olmuşdur.

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sərbəst auditor və ya auditor təşkilatının nüfuzunu | 33,6% | 56,0% | 56,9% | 51,2% | 53,4% | 45,7% | 42,0% | 57,1% | 58,8% |
| Sərbəst auditor və ya auditor | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| təşkilatının auditor və mütəxəssisləri ilə ünsiyyət nəticəsində formalaşan şəxsi rəyi | 18,0% | 22,0% | 21,1% | 15,3% | 18,5% | 15,0% | 23,7% | 16,3% | 13,1% |
| Xidmətin dəyəri | 20,0% | 20,5% | 28,2% | 26,5% | 23,3% | 23,6% | 36,7% | 40,8% | 35,9% |
| Bundan əvvəl göstərilmiş auditin nəticəsini | 13,3% | 17,0% | 26,8% | 36,3% | 24,9% | 15,5% | 16,3% | 22,4% | 21,6% |
| Digər səbəblər | 1,4% | 5,5% | 3,3% | 3,7% | 1,1% | 3,6% | 1,6% | 40,1% | 2,0% |

Respondentlər digər səbəbləri əsasən xidmətin yüksək səviyyəsi və dəyəri, keyfiyyətli auditin aparılması, peşəkarlığı və beynəlxalq standartlara uyğun auditin aparılması ilə bağlı seçim meyarlarına üstünlük verirlər.

**11.** Auditor xidmətinin hansı növündən istifadə etmisiniz sualına respondentlər 2003-cü ildə 77,7%, 2004-cü ildə 83,3%-i, 2005-ci ildə 85,3%-i, 2006-cı ildə 87,8%-i, 2007-ci ildə 77,1%-i, 2008-ci ildə 87,3%-i, 2009-cu ildə 82,0%-i, 2011-ci ildə 94,3%-i, 2013-cü ildə isə 95,5%-i belə cavablandırmışlar.

Sorğunun nəticələri göstərir ki, respondentlərin bir qismi xidmətin bir neçə növündən istifadə etmişdir.

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Maliyyə-mühasibat hesabatlarının auditi və onun düzgünlüyünün təsdiqi | 47,9% | 76,5% | 73,7% | 65,6% | 72,5% | 53,8% | 48,2% | 39,2% | 51,4% |
| Maliyyə-təsərrüfat fəaliyyətinin təhlili | 19,0% | 14,5% | 26,8% | 23,3% | 22,8% | 22,0% | 27,8% | 22,8% | 20,0% |
| Beynəlxalq mühasibat uçotu və audit standartlarına uyğun audit aparılması | 5,2% | 16,0% | 18,2% | 20,0% | 22,8% | 17,5% | 19,2% | 20,8% | 22,0% |
| Mühasibat uçotunun qurulması və bərpa edilməsi | 1,4% | 8,5% | 8,6% | 5,6% | 11,1% | 6,1% | 12,2% | 6,5% | 11,4% |
| Mühasibat hesabatlarının tərtib edilməsi | 3,3% | 9,0% | 10,5% | 6,5% | 13,2% | 8,1% | 14,3% | 7,3% | 11,4% |
| Vergi hesabatlarının tərtib edilməsi | 8,0% | 15,5% | 17,2% | 10,2% | 14,3% | 13,0% | 17,6% | 9,8% | 19,6% |
| Məsləhət xidmətləri | 13,3% | 11,5% | 14,8% | 14,0% | 13,8% | 5,7% | 17,1% | 23,7% | 18,8% |
| Digər auditor xidmətləri | 0,0% | 6,5% | 0,9% | 3,3% | 0,5% | 1,2% | 0,4% | 9,8% | 3,3% |

Respondentlər digər auditor xidmətləri kimi informasiya texnologiyaları auditini, bütün sahələri və daxili auditin qurulması ilə bağlı xidmətlərdən istifadə etdiklərini bildirmişlər.

**12.** Sizin təşkilat Milli Mühasibat Uçotu Standartlarına keçmişdirmi sualına respondentlərin 2011-ci və 2013-cü illərdə 100%-i cavablandırmışdır.

| | **2011** | **2013** |
|---|---|---|
| Bəli | 73,5% | 73,1% |
| Xeyr | 26,5% | 26,9% |

**13.** Göstərilmiş auditor xidmətinin keyfiyyətindən razısınızmı sualına respondentlərin 2003-cü ildə 77,7%-i, 2004-cü ildə 83,3%-i, 2005-ci ildə 85,3%-i, 2006-cı ildə 87,8%-i, 2007-ci ildə 77,1%-i, 2008-ci ildə 87,3%-i, 2009-cu ildə 82,0%-i , 2011-ci ildə 94,3%-i, 2013-cü ildə isə 95,5%-i cavablandırmışdır.

Sorğunun nəticələri göstərir ki, göstərilən auditor xidmətinin keyfiyyətinə müxtəlif qiymətlər verilmişdir.

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tamamilə | 53,0% | 63,0% | 49,3% | 57,7% | 46,0% | 51,9% | 53,2% | 58,4% | 54,7% |
| Qismən razıyam | 39,4% | 25,0% | 45,5% | 40,0% | 50,3% | 44,4% | 42,8% | 31,2% | 30,8% |
| Razı deyiləm | 1,5% | 5,0% | 0,9% | 0,9% | 1,1% | 1,4% | 1,0% | 0,4% | 0,8% |
| Cavab verməkdə çətinlik çəkirəm | 6,1% | 7,0% | 4,3% | 1,4% | 2,6% | 2,3% | 3,0% | 10,0% | 13,7% |

**14.** Göstərilmiş auditor xidmətinin keyfiyyətindən narazısınızsa sualının cavabının səbəbini respondentlər bir neçə baxımdan münasibət bildirmişlər.

Sorğunun nəticələri göstərir ki, bu sualın cavabını respondentlərin (baza: 2003-cü il 175(100%), 2004, 2005, 2006, 2007, 2008, 2009 və 2011-ci illər 245(100%), 2003-cü ildə 1,5%-i, 2004-cü ildə 5,0%-i, 2005-ci və 2006-cı illərdə 0,9%-i, 2007-ci ildə 1,1%-i, 2008-ci ildə 1,4%-i, 2009-cu ildə 1,0%-i, 2011-ci ildə 0,4%-i, 2013-cü ildə isə 0,8%-i cavablandırmışdır.

Bu sualı cavablandırmış respondentlər auditor xidmətinin keyfiyyətindən narazılığını aşağıdakı səbəblərlə bağlamışlar:

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Auditin aparılmasında | 0,0% | 2,5% | 1,9% | 1,4% | 1,1% | 0,9% | 0,4% | 0,4% | 0,4% |
| Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə riayət edilməməsi | 0,0% | 5,0% | 1,4% | 0,9% | 1,6% | 0,9% | 0,4% | 0,4% | 0,4% |
| Auditorun peşəkarlığının və səriştəliliyinin kifayət qədər olmaması | 26,5% | 5,0% | 5,2% | 4,2% | 1,1% | 0,5% | 0,8% | 0,4% | 0,4% |
| Auditorun yoxlama apararkən əhəmiyyətli nöqsanları aşkar etməməsi | 26,5% | 2,5% | 2,4% | 1,9% | 1,6% | 0,9% | 0,4% | 0,4% | 0,4% |
| Auditorun müqavilədə öz üzərinə götürdüyü öhdəlikləri tam həcmdə icra etməməsi | 17,6% | 1,5% | 2,4% | 1,4% | 1,1% | 0,5% | 0,4% | 0,4% | 0,4% |
| Auditorun yoxlama zamanı obyektivlikdən uzaq olması və qərəzli mövqe tutması | 2,9% | 1,5% | 0,0% | 2,3% | 1,6% | 1,4% | 0,8% | 0,4% | 0,0% |
| Auditorun verdiyi rəyin subyektin fəaliyyəti haqqında tam və dolğun mənzərə yaratmaması | 20,7% | 2,0% | 3,3% | 2,8% | 1,6% | 0,9% | 0,4% | 0,4% | 0,4% |
| Auditor tərəfindən məxfiliyə əməl edilməməsi | 2,9% | 1,0% | 0,0% | 1,9% | 1,1% | 0,5% | 0,4% | 0,4% | 0,4% |
| Digər səbəblər | 0,0% | 4,0% | 1,9% | 1,4% | 2,6% | 0,9% | 0,4% | 0,4% | 0,4% |

Digər səbəblər kimi respondentlər auditor tərəfindən audit hesabatının yekun variantının gec təqdim etməsi, audit yoxlamasının nəticəsinin digər yoxlayıcı təşkilatlar qarşısında müdafiə olunmaması göstərmişlər.

**15.** Respondentlər auditdən sonra digər yoxlayıcı orqanların onların fəaliyyətində nöqsanlar aşkar etmişdirmi sualını müxtəlif baxımdan cavablandırmışlar.
Belə ki, bu məsələyə respondentlərin 2003-cü ildə 77,7%-i, 2004-cü ildə 83,3%-i, 2005-ci ildə 85,3%-i, 2006-cı ildə 87,8%-i, 2007-ci ildə 77,1%-i, 2008-ci ildə 87,3%-i, 2009-cu ildə 82,0%-i, 2011-ci ildə 94,3%-i 2013-cü ildə isə 95,5%-i öz münasibətlərini bildirmişdir.

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Belə yoxlama olmayıb | 17,7% | 26,5% | 37,8% | 36,3% | 27,0% | 31,8% | 28,4% | 32,5% | 32,5% |
| Aşkar edilməyib | 58,5% | 56,0% | 44,0% | 42,8% | 62,4% | 50,0% | 59,2% | 52,4% | 51,3% |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Aşkar edilib | 4,6% | 5,0% | 5,7% | 7,9% | 3,7% | 5,6% | 2,5% | 2,2% | 3,4% |
| Bu barədə danışmaq istəməzdim | 19,2% | 12,5% | 12,5% | 13,0% | 6,9% | 12,6% | 9,9% | 12,9% | 12,8% |

Respondentlər auditdən sonra digər yoxlayıcı orqanların onların fəaliyyətində nöqsanlar aşkar etmişdirmi sualını təşkilati-hüquqi forması baxımdan Cədvəl15-dəki kimi cavablandırmışlar.

**Cədvəl 15**

| Auditdən sonra digər yoxlayıcı orqanalrın sizin fəaliyyətinizdə nöqsanlar aşkar etmişdirmi? | Dövlət | Açıq tipli səhmdar cəmiyyəti | Qapalı tipli səhmdar cəmiyyəti | Məhdud məsuliyyətli müəssisə | Birgə müəssisələr | Qeyri kommersiya | Digər müəssisə və təşkilatlar | Cəmi: |
|---|---|---|---|---|---|---|---|---|
| **Belə yoxlama olmayıb** | 1,0% | 7,5% | 3,2% | 11,5% | 3,5% | 1,3% | 4,5% | **32,5%** |
| **Aşkar edilməyib** | 1,1% | 14,7% | 4,5% | 17,4% | 6,0% | 1,5% | 6,1% | **51,3%** |
| **Aşkar edilib** | 0,2% | 0,6% | 0,3% | 1,3% | 0,2% | 0,4% | 0,4% | **3,4%** |
| **Bu barədə danışmaq istəməzdim** | 0,5% | 2,0% | 1,0% | 3,0% | 1,5% | 1,7% | 3,1% | **12,8%** |
| **Cəmi:** | **2,8%** | **24,8%** | **9,0%** | **33,2%** | **11,2%** | **4,9%** | **14,1%** | **100,0%** |

**16.** Auditor xidmətindən istifadə etməyin respondentlərin fəaliyyətinə nə kimi əsas köməyi olub sualını, 2003-cü ildə 77,7%-i, 2004-cü ildə 83,3%-i, 2005-ci ildə 85,3%-i, 2006-cı ildə 87,8%-i, 2007-ci ildə 77,1%-i, 2008-ci ildə 87,3%-i, 2009-cu ildə 82,0%-i, 2011-ci ildə 94,3%-i, 2013-cü ildə isə 95,5%-i cavablandırmışdır.

Respondentlərin bəzisi bu məsələyə öz münasibətini bir neçə variantda bildirmişdir.

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2011** | **2013** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bir çox nöqsanları vaxtında aradan qaldırmışıq | 30,2% | 36,5% | 41,1% | 40,9% | 49,7% | 46,7% | 48,3% | 42,0% | 30,3% |
| Düzgün maliyyə təsərrüfat əməliyyatları aparmaq və mühasibat hesabatları tərtib etmək üçün dəyərli məsləhətlər almışıq | 42,0% | 46,0% | 46,9% | 55,3% | 47,1% | 41,6% | 27,9% | 42,4% | 59,0% |
| Psixoloji cəhətdən rahatlıq əldə etmişik | 9,5% | 15,0% | 19,6% | 19,1% | 11,1% | 17,8% | 20,4% | 9,9% | 12,0% |
| Elə bir faydası olmayıb | 6,5% | 7,5% | 11,9% | 2,8% | 5,3% | 3,3% | 5,0% | 3,5% | 10,7% |
| Əksinə ziyanı olub | 0,6% | 1,0% | 0,0% | 0,0% | 0,0% | 0,5% | 0,5% | 0,4% | 0,4% |
| Digər təsirlər | 1,2% | 8,0% | 0,9% | 2,8% | 1,1% | 0,0% | 2,5% | 8,2% | 3,4% |

Digər təsirlər kimi respondentlər audit yoxlamasından sonra təsərrüfat subyektlərində məsuliyyət artmış, maliyyə-təsərrüfat əməliyyatlarının və mühasibat hesabatının beynəlxalq standartlarını tətbiq etməyi, beynəlxalq arenaya çıxılması üçün münbit şərait yaradılmış, əmlakın yenidən qiymətləndirilməsi və onun müasir qiymətlə dəyərləndirilməsinə imkan yaradılmış, maliyyə-təsərrüfat fəaliyyətinin təhlili aparılıb, audit yoxlamasını tələb edən səhmdarlar qarşısında məsuliyyəti, digər təşkilatlarla münasibətdə audit rəyinin olmasının vacib hesab olunduğu halı göstərmişlər.

**17.** Fəaliyyətlə bağlı əvvəlki auditlə son auditin keyfiyyətində hansı dəyişikliklər olub sualını respondentlərin 2003-cü ildə 77,7%-i, 2004-cü ildə 83,3%-i, 2005-ci ildə 85,3%-i, 2006-cı ildə 87,8%-i, 2007-ci ildə 77,1%-i, 2008-ci ildə 87,3%-i, 2009-cu ildə 82,0%-i, 2011-ci ildə 94,3%-i, 2013-cü ildə isə 95,5%-i cavablandırmışdır.

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Xidmətin keyfiyyəti yüksəlib | 39,4% | 43,5% | 43,5% | 53,5% | 50,3% | 56,5% | 70,1% | 71,9% | 43,2% |
| Xidmətin keyfiyyəti aşağı düşüb | 0,0% | 1,0% | 0,5% | 0,4% | 0,5% | 1,4% | 0,9% | 0,4% | 4,3% |
| Xidmətin keyfiyyəti dəyişməz qalıb | 43,4% | 35,5% | 35,4% | 29,8% | 39,2% | 28,5% | 14,5% | 17,3% | 29,9% |
| Cavab verməkdə çətinlik çəkirəm | 17,2% | 20,0% | 20,6% | 16,3% | 10,1% | 13,6% | 14,5% | 10,4% | 22,6% |

**18.** Əvvəlki auditorun xidmətindən imtina etmisinizmi sualın cavabına respondentlərin 2003-cü ildə 16,0%-i, 2004-cü ildə 59,5%-i, 2005-ci ildə 40,0%-i, 2006-cı ildə 39,5%-i, 2007-ci ildə 10,6%-i, 2008-ci ildə 12,1%-i, 2009-cu ildə 17,9%-i, 2011-ci ildə 24,2%-i, 2013-cü ildə isə 17,9%-i münasibət bildirmişlər.

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Müqavilə qiymətində razılığa gələ bilməməyimiz | 53,6% | 26,9% | 36,7% | 38,8% | 8,5% | 12,1% | 17,9% | 24,2% | 17,9% |
| Auditorun məxfilik prinsipinə əməl etməməsi ilə bağlı yaranan inamsızlıq | 3,6% | 2,5% | 1,0% | 15,3% | 4,2% | 4,2% | 3,0% | 0,4% | 3,8% |
| Auditorun peşəkarlıq və səriştəlilik səviyyəsinin bizi qane etməməsi | 28,6% | 18,5% | 21,4% | 27,1% | 11,1% | 6,1% | 12,9% | 2,6% | 13,2% |
| Auditorun peşə-etik normalara riayət etməməsi | 0,0% | 1,7% | 2,0% | 2,4% | 1,1% | 0,5% | 4,0% | 2,2% | 3,8% |
| Digər səbəblər | 14,2% | 4,2% | 38,8% | 16,4% | 10,6% | 2,3% | 10,4% | 16,0% | 10,7% |

Digər səbəblər kimi respondentlər auditorun fəaliyyətinin dayandırılması, əvvəlki auditorla tanışlıq olmadığı üçün, bəzi yuxarı orqanların göstərişi ilə, 3 ildən bir yeni auditorlar arasında rotasiyanın aparılması, digər auditorun yanaşması maraqlı olduğundan, sığorta qanunvericiliyinin tələbləri ilə əlaqədar göstərmişlər.

**19.** Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyəti barədə illik hesabatın hazırlanmasına münasibətiniz necədir sualına respondentlərin 2013-cü ildə 100%-i münasibət bildirmişdir.

| | 2013 |
|---|---|
| Yaxşı | 69,8% |
| Orta | 29,4% |
| Pis | 0,8% |
| Digər | 0,0% |

**20.** Auditorlar Palatasının internet saytında etik məsələlər üzrə xüsusi bölmənin yaradılmasına münasibətiniz necədir sualına respondentlərin 2013-cü ildə 100%-i münasibət bildirmişdir.

| | 2013 |
|---|---|
| Yaxşı | 77,1% |

| | |
|---|---|
| Orta | 22,9% |
| Pis | 0,0% |
| Digər | 0,0% |

**21.** Ölkədə auditor xidmətinin inkişafına mane olan səbəblər hansılardır, sualına respondentlərin 2003-cü ildə 92,0%-i, 2004-cü, 2005-ci, 2006-cı, 2007-ci, 2008-ci, 2009-cu, 2011-ci və 2013-cü illərdə isə 100%-i münasibət bildirmişdir. Respondentlərin bəzisi bu sualı bir neçə variantda cavablandırmışlar.

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ölkədə auditor xidmətinin əhəmiyyətliliyinin lazımi səviyyədə qiymətləndirilməməsi | 31,3% | 55,5% | 53,9% | 57,1% | 44,5% | 52,6% | 44,5% | 47,3% | 49,4% |
| Qanunvericilik bazasının kifayət qədər təkmil olmaması | 10,5% | 20,5% | 22,0% | 6,3% | 20,4% | 15,1% | 19,6% | 13,9% | 29,4% |
| Təsərrüfat subyektinin, səhmdarların, investorların və digər maraqlı tərəflərin auditdə maraqlı olmaması | 14,1% | 15,0% | 20,0% | 21,6% | 6,5% | 18,4% | 15,1% | 32,2% | 27,8% |
| Təsərrüfat subyektlərinin idarəetmə sisteminin, maliyyə menecmentinin aşağı səviyyəsi | 5,4% | 0,5% | 9,4% | 4,9% | 4,5% | 8,6% | 7,8% | 4,1% | 10,2% |
| Ölkədə göstərilən auditor xidmətlərinin keyfiyyətinin aşağı səviyyədə olması | 5,4% | 12,0% | 11,7% | 7,8% | 8,2% | 7,3% | 6,5% | 2,9% | 7,3% |
| Auditor xidməti dəyərinin yüksək olması | 8,3% | 3,0% | 7,8% | 13,0% | 8,2% | 8,6% | 8,2% | 9,8% | 15,1% |
| Auditorların peşə-ixtisas səviyyəsinin kifayət qədər yüksək olmaması | 2,9% | 12,5% | 11,9% | 9,4% | 10,2% | 9,4% | 9,3% | 5,3% | 3,3% |
| Auditor xidməti bazarında qeyri-sağlam mühitin olması | 4,2% | 7,5% | 15,9% | 11,4% | 6,5% | 6,5% | 8,5% | 4,5% | 6,5% |
| Auditorların müstəqilliyinin kifayət qədər təmin edilməməsi | 1,3% | 4,5% | 7,3% | 7,3% | 3,3% | 10,6% | 10,2% | 5,7% | 3,7% |
| Sərbəst auditor və auditor təşkilatları haqqında kifayət qədər məlumatın olmaması | 8,6% | 5,5% | 14,3% | 23,3% | 10,6% | 16,3% | 19,1% | 18,8% | 15,1% |
| Dövlət orqanlarının qanundankənar müdaxilələri | 8,0% | 4,0% | 5,3% | 8,6% | 3,3% | 1,6% | 6,9% | 2,9% | 3,3% |
| Dövlət məmurlarının qeyri-qanuni müdaxilələri | 3,8% | 6,0% | 3,3% | 7,3% | 3,3% | 2,4% | 7,3% | 3,3% | 4,1% |
